## “Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin aparılması Qaydaları”nın və “Daşınar əmlakın yüklülüyünün dövlət reyestrindən istifadə haqqının məbləği”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 1901 nömrəli Fərmanının 3.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin Siyahısı” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi* “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin informasiya sisteminin bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Siyahıda nəzərdə tutulan informasiya sistemləri və ehtiyatları ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.[1]

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 6 fevral 2019-cu il
38

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2019-cu il 6 fevral tarixli 38 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.

## Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin

## SİYAHISI

| Sıra - si | İnformasiya sistemi və ehtiyatı |
|---|---|
| 1. | ***Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti***[2] |
| 1.1. | Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi |
| 2. | **Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi** |
| 2.1. | “Elektron məhkəmə” sisteminin müvafiq komponentləri (tam fəaliyyət göstərənə qədər mərhələli şəkildə) |
| *2.2.* | *“Elektron icra” İnformasiya Sistemi*[3] |
| 3. | **Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** |
| 3.1. | Mərkəzləşdirilmiş Elektron İnformasiya Sistemi |
| 4. | **Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi** |
| 4.1. | Gömrük Xidmətinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi |
| *5.* [4] | *Azərbaycan Respublikasının Baş Prokurorluğu* |
| *5.1.* | *“Elektron prokurorluq” informasiya sistemi* |

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 27 mart 2019-cu il tarixli **127** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 30 mart 2019-cu il, 67 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 560)**
2. 24 iyun 2022-ci il tarixli **247** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 30 iyun 2022-ci il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 685)**
3. 31 may 2023-cü il tarixli **173** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 1 iyun 2023-cü il, “Xalq” qəzeti, 3 iyun 2023-cü il, 116**)

### QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

[1] 31 may 2023-cü il tarixli **173** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 1 iyun 2023-cü il, “Xalq” qəzeti, 3 iyun 2023-cü il, 116**) ilə 2-ci hissədə “**Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi**” sözləri “**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi** ” sözləri ilə əvəz edilmişdir.

[2] 31 may 2023-cü il tarixli **173** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 1 iyun 2023-cü il, “Xalq” qəzeti, 3 iyun 2023-cü il, 116**) ilə “Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin Siyahısı”nın 1-ci hissəsində “**Azərbaycan Respublikasının Vergilər Nazirliyi**” sözləri “**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti**” sözləri ilə əvəz edilmişdir.

[3] 27 mart 2019-cu il tarixli **127** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 30 mart 2019-cu il, 67, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 560**) ilə “Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin Siyahısı”na yeni məzmunda 2.2-ci bənd əlavə edilmişdir.

[4] 24 iyun 2022-ci il tarixli **247** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 30 iyun 2022-ci il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 685**) ilə “Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin Siyahısı”na yeni məzmunda 5-ci hissə əlavə edilmişdir.